# Azərbaycan Respublikası Təhsil Nazirliyi
# Bakı İdarəetmə və Texnologiya Kolleci

# “Geyimlərin konstruksiyası və modelləşdirilməsi”

fənninin

# PROQRAMI

İxtisas: 040570– “Geyimlərin modelləşdirilməsi və konstruksiya edilməsi ”
İxtisas: 040569 “ Tikiş məmulatlarının texnologiyası”

Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı İdarəetmə və Texnologiya Kollecinin Metodiki şurasının 15 sentyabr 2017-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir.
(Protokol № 1)

**Bakı 2017**

**Tərtib etdi:**

Bakı İdarəetmə və Texnologiya Kollecinin fənn müəllimi — Cabbarova Ülviyyə Natiq

**Redaktor:**

Bakı İdarəetmə və Texnologiya Kollecinin “Zərgərlik, geyimlərin modelləşdirilməsi və konstruksiya edilməsi” fənn birləşməsinin sədri — Bağırova Nazirə Əhməd

**Rəy verənlər:**

Bakı İdarəetmə və Texnologiya Kollecinin fənn müəllimi — 1.Namazova Nərminə Tahir

Azərbaycan Dövlət İqtisad Universiteti, “Dizayn” kafedrasının müdiri, s.ü.f.d. — 2.L.H.Məmmədova

# İZAHAT VƏRƏQİ

**Fənnin tədrisinə ayrılan saatın miqdarı: 450 saat**

Proqramda “Geyimlərin konstruksiyası və modelləşdirilməsi” fənninin məqsədi, onun məzmunu və tədris planının başqa fənlər ilə əlaqəsi verilir. Geyimlərin keyfiyyətinin yaxşılaşdırılması, geyim məmulatlarının çeşidlərinin artırılması və material ehtiyatlarının qənaətlə sərf edilməsində yüngül sənayenin qarşısında bir sıra məsələlər durur. Geyimlərin hazırlanması prosesində elmi-texniki tərəqqinin kompleks şəkildə inkişafında modelləşdirmə və konstruksiyalaşdırma sahəsində elmi axtarışların rolu böyükdür.Konstruksiyanın hazırlanması tikiş istehsalının əsas mərhələlərindən biri hesab olur.Konstruksiyanın keyfiyyətli hazırlanması,onun yeni metodikasının nəzəri və praktik öyrənilməsi, dövrün tələbinə uyğunlaşdırılması istehsalın inkişafına imkan yaradan vacib tələblərdən biridir. Belə ki, bütün mərhələlərdə olduğu kimi müasir dövrümüzdə də əhalinin tikiş məmulatına olan tələbatı durmadan yüksəlir. Ölkəmizdə insanların mədəni səviyyəsinin inkişaf etməsi, rifah halının yaxşılaşması yaraşıqlı, zövqoxşayan keyfiyyətli tikiş məmulatına olan təlabatı daima artırır.Bu məqsədlə yüksək keyfiyyətli, müasir modelli geyimlərin istehsal olunması, onların xarici ölkələrdə istehsal edilən geyimlərlə rəqabət apara bilməsinin təmin edilməsi günün tələbidir.

Bu kursda 270 saat mühazirəyə, 180 saat  məşğələ dərsləri üçün üçün nəzərdə tutulmuşdur.

## MÖVZULAR ÜZRƏ SAATLARIN PAYLANMASI

| № | Mövzuların adları | Mühazirə | Seminar |
|---|---|---|---|
| 1. | Geyimlərin konstruksiyası və modelləşdirilməsi" fənninin əsas məqsədi | 2 | 2 |
| **Bölmə 1. Geyimlərin konstruksiya edilməsinin nəzəri əsasları** | | | |
| 1.1 | Geyim haqqında ümumi məlumat | 2 | 2 |
| 1.2 | Geyimlərin çeşidləri və təsnifatı | 2 | 2 |
| 1.3 | Geyimin keyfiyyətinin qiymətləndirilməsi | 2 | 2 |
| 1.4 | Geyimin modelləşdirilməsində moda,rəng,siluet və siluet xətləri | 2 | 2 |
| 1.5 | Geyimin konstruksiya edilməsinin əsas amilləri | 2 | 2 |
| 1.6 | İnsan fiqurası haqqında məlumat | 2 | 2 |
| 1.7 | Antropometrik ölçü göstəricilərinin adı, şərti işarəsi və ölçü götürmə qaydaları | 2 | 2 |
| 1.8 | Əsas ölçülərin xarakteristikası | 2 | 2 |
| 1.9 | Ölçü standartlarının hazırlanması | 2 | 2 |
| 1.10 | Geyimin vahid konstruksiya metodikasının əsas xarakterik xüsusiyyətləri | 2 | 2 |
| 1.11 | Ornament və ritm | 2 | 2 |
| 1.12 | Geyimin konstruksiyasını layihə etmək üçün nümunəvi qadın fiqurunun əsas ölçü göstəriciləri | 2 | 2 |
| 1.13 | Qadın fiqurunun müxtəlifliyindən asılı olaraq don modelinin seçilməsi üçün bəzi tövsiyyələr | 2 | 2 |
| 1.14 | Geyim hissə və hissəcikləri,onların konstruktiv xətləri | 2 | 2 |
| **Bölmə 2. Qadın geyimlərinin konstruksiyasının layihəhəndirilməsi** | | | |
| 2.1 | Qadın geyimlərinin konstruksiyasının METTSİ görə ilkin hesablanması | 2 | 4 |
| 2.2 | Geyimlər üçün nəzərdə tutulan əlavə pay və əlavə artımlar | 2 | 4 |
| 2.3 | Geyim hissələrinin bazis konstruksiya xətləri və adları | 2 | 4 |
| 2.4 | Çiyinli geyimlər | 2 | 4 |
| 2.5 | Kəmərli geyimlər | 2 | 4 |
| 2.6 | Düz yubkanın BK qurulması | 2 | 4 |
| 2.7 | Düz yubkanın modelləşdirilməsi | 2 | 4 |

| | | | |
|---|---|---|---|
| 2.8 | Konus şəkilli, taxtalı yubkaların konstruksiyası və modelləşdirilməsi, yumşaq qasmalı düz yubka | 2 | 4 |
| 2.9 | Bir tərəfə yatan yumşaq qasmalı düz yubka | 2 | 4 |
| 2.10 | Günəş yubkanın hesabatı | 2 | 4 |
| 2.11 | Yarımgünəş yubkanın hesabatı | 2 | 4 |
| 2.12 | Qadın şalvarının BK qurulması | 2 | 4 |
| 2.13 | Gen-bol biçimli şalvarlar | 2 | 4 |
| 2.14 | Ciblərin hesabatı və qurulması | 2 | 4 |
| 2.15 | Yan ciblərin qurulması | 2 | 4 |
| **Bölmə 3. Geyimin vahid konstruksiya metodikasının əsas xüsusiyyətləri** | | | |
| 3.1 | Qol əsasının qurulması | 2 | 2 |
| 3.2 | Birtikişli qollar | 2 | 2 |
| 3.3 | İkitikişli qollar | 2 | 2 |
| 3.4 | Reqlan biçilən qolun qurulması | 2 | 2 |
| 3.5 | Qolların modelləşdirilməsi | 2 | 2 |
| 3.6 | Qol yerində və qolun çiyin dairəsində çərtiklərin yerləşdirilməsi | 2 | 2 |
| 3.7 | Qadınlar üçün düz siluetli bluzkanın konstruksiyası | 2 | 2 |
| 3.8 | Qadınlar üçün qasmalı bluzkanın konstruksiyası | 2 | 2 |
| 3.9 | Boyun kəsiklərinin formasında köbənin konstruksiyası | 2 | 2 |
| 3.10 | Qadınlar üçün qolu bütöv biçilmiş bluzkanın konstruksiyası | 2 | 2 |
| 3.11 | Qadınlar üçün koketkalı bluzkanın konstruksiyası | 2 | 2 |
| 3.12 | Reqlan biçimli məmulatın arxa və qabaq hissəsinin konstruksiyası | 2 | 2 |
| 3.13 | Qadın donunda qarsaqların hesablanması | 2 | 2 |
| 3.14 | Geyimin köynək biçimli qolla konstruksiyası | 2 | 2 |
| 3.15 | Mütənasiblik üsulunun qurulması | 2 | 2 |
| 3.16 | Qadınlar üçünçertyojun hesabatı və sərbəst siluetli donun çertyojunun qurulması. | 2 | 2 |
| 3.17 | Qadınlar üçün şarfla düymələnən donun konstruksiyası. | 2 | 2 |
| 3.18 | Qadınlar üçün düz siluetli beli kəsik olmayan paltar xalatın konstruksiyası | 2 | 2 |
| 3.19 | Çanaq xəttindən kəsik siluetli paltonun modelləşdirilməsi | 2 | 2 |
| 3.20 | Qadınlar üçün qolu bütöv biçilmə paltonun texniki modelləşdirilməsi | 2 | 2 |

| | | | |
|---|---|---|---|
| 3.21 | Birbortlu donun konstruksiyası | 2 | 2 |
| 3.22 | Qadınlar üçün koketkalı donun konstruksiyası | 2 | 2 |
| 3.23 | Qadınlar üçün uzunqollu kəmərcikli donun konstruksiyası | 2 | 2 |
| 3.24 | Relyef xətlərinin qurulması | 2 | 2 |
| 3.25 | Yeddi taxtalı qadın paltarının konstruksiyası | 2 | 2 |
| 3.26 | Yun parçadan paltar modelinin işlənməsi | 2 | 2 |
| 3.27 | Qadınlar üçün reqlan biçimli paltarın konstruksiyası və modelləşdirilməsi | 2 | 2 |
| 3.28 | Qadınlar üçün müxtəlif formalı yüngül geyimlərin ülgü çertyojları | 2 | 2 |
| 3.29 | Qadınlar üçün kimano -xalat | 2 | 2 |
| 3.30 | Döş qarsağının hərəkət qaydası | 2 | 2 |
| **Bölmə 4. Geyim detallarının layihələndirilməsi** | | | |
| 4.1 | Dama-dama parçadan paltarın konstruksiyası | 2 | 4 |
| 4.2 | Xal-xal parçadan paltarın konstruksiyası | 2 | 4 |
| 4.3 | Qadın paltosunun qurulması | 2 | 4 |
| 4.4 | Yan ciblərin qurulması | 2 | 4 |
| 4.5 | Yaxalıqların növləri və formaları | 2 | 4 |
| 4.6 | Bağlanması boyun kəsiyinə qədər olan yaxalıqlar | 2 | 4 |
| 4.7 | Yastı yayılmış yaxalıqlar. | 2 | 4 |
| 4.8 | Manjetlərin növləri və formaları | 2 | 4 |
| **Bölmə 5. Kişi üst geyimlərinin konstruksiyası haqqında məlumat** | | | |
| 5.1 | Kişi üst geyimlərinin konstruksiya xüsusiyyətləri | 2 | 4 |
| 5.2 | Nümunəvi kişi fiqurunun ölçüsünə,boyuna,doluluq və yaş qrupuna görə təsnifatı | 2 | 4 |
| 5.3 | Kişi çiyin məmulatının konstruksiyasının ilkin hesablanması | 2 | 4 |
| 5.4 | Bədənə yatan və yarımyatan siluetli,yançağı kəsik çiyin. geyiminin əsas çertyoju | 2 | 4 |
| 5.5 | Jiletin konstruksiyası və çertyojunun qurulması | 2 | 4 |
| **Bölmə 6. Uşaqlar üçün geyimlərin layihələndirilməsi** | | | |
| 6.1 | Körpələr və uşaqlar üçün geyimlərin konstruksiyasının əsas xüsusiyyətləri | 2 | 4 |
| 6.2 | Məktəbli və yeniyetmə uşaqlar üçün geyimlər | 2 | 4 |
| 6.3 | Qız üçün don | 2 | 4 |

| | | | |
|---|---|---|---|
| 6.4 | Qız üçün beli kəsik donun layihələndirilməsi | 2 | 4 |
| 6.5 | Müxtəlif yaş qrupda uşaqlar üçün kəmərli geyimlərin konstruksiyası | 2 | 4 |
| **Bölmə 7. Geyimin fərdi layihələndirilmə üsulları** | | | |
| 7.1 | Müxtəlif yaş qrupuna aid uşaqlar üçün kəmərli geyimlərin konstruksiyası | 2 | 4 |
| 7.2 | Maketin bədənə uyğunlaşdırılması | 2 | 4 |
| 7.3 | Geyimin modelinin konstruksiya edilməsinin texniki üsulları | 2 | 4 |
| 7.4 | Hazır modelin görünüşünə uyğun yeni geyim modelinin konstruksiyasının işlənilmə üsulları | 2 | 4 |
| 7.5 | Əsas ülgünün fərdi maketə uyğunlaşdırılaraqdəqiqləşdirilməsi qaydası | 2 | 4 |
| 7.6 | Geyimin bədənə fərdi uyğunlaşdırılması | 2 | 4 |
| 7.7 | Geyimdəki qüsurlar, onların alınma səbəbləri və düzəldilmə üsulları | 2 | 4 |
| 7.8 | Bədənin formasından asılı olaraq şalvarın çertyojunda aparılan dəyişikliklər | 2 | 4 |
| 7.9 | Kütləvi tikiş məmulatı istehsalında ülgünün hazırlanma qaydaları | 2 | 4 |
| 7.10 | Ülgü tərtibatının texniki tələbləri | 2 | 4 |
| 7.11 | Qadın üst geyimlərində eyni tipli konstruksiyanın xarakteristikası | 2 | 4 |
| 7.12 | Korset məmulatının qısa inkişaf tarixi haqında məlumat | 2 | 4 |
| **Cəmi**: **450 saat** | | | |

## MÖVZULAR VƏ ONLARIN İZAHI

***Mövzu 1.*“Geyimlərin konstruksiyası və modelləşdirilməsi” fənninin əsas məqsədi - 4 saat**

**“**Geyimlərin konstruksiyası və modelləşdirilməsi**”** fənninin öyrənilməsinin əsas məqsədi. Müxtəlif görünüşlü geyimlərin konstruksiya edilməsi sahəsinin nəzəri biliklərinin və təcrübə bacarıqlarının mənimsənilməsi. Tikiş sənayesinin istehsal etdiyi müxtəlif geyim çeşidləri, insan bədəninin quruluşu, ölçülərin insan bədənindən götürülməsi, müxtəlif geyim çeşidlərinin cizgisinin qurulması.

***Bölmə 1. Geyimlərin konstruksiya edilməsinin nəzəri əsasları***

***Mövzu 1.1.* Geyim haqqında ümumi məlumat - 4 saat**

Geyimlərin çeşidləri, konstruksiyanın sistem və metodları, müxtəlif biçimlərdə və siluetlədə geyimlərin hesabatı və çertyojunun qurulması, ülgülərin hazırlanması və texniki çoxaldılması yollarının öyrənilməsi.

Geyimin insan həyatında rolu. Geyim konstruksiyasının inkişaf prosesi. Geyimin əsas funksiyası. İnsan bədəninin xarici mühitdən qorunması və estetikliyi.

***Mövzu 1.2.* Geyimlərin çeşidləri və təsnifatı - 4 saat**

Geyimlərin çeşidləri və təsnifatının öyrənilməsi. Dəbdə olan müasir modalı geyimin təyinatı. Məmulatların çeşidlərinin yaşa, sinifə və cinsə  görə bölünməsi.

***Mövzu 1.3.* Geyimin keyfiyyətinin qiymətləndirilməsi - 4 saat**

Məhsulun keyfiyyəti, onun dünya bazarında rəqabət qiyməti. Obyektiv elmi-texniki tərəqqinin ümumi göstəriciləri. İstehsalın təkminləşməsinin səviyyəsi, mədəniyyətinin göstəriciləri. Tikiş məmulatına aid olan təlabatlar.

***Mövzu 1.4.* Geyimin modelləşdirilməsində moda, rəng, siluet  və siluet xətlər - 4 saat**

Modelin görünüşünün və onun müasir xüsusiyyətinin, qayəsinin (siluetinin) hazırlanması.Siluetinin qurulması, modelləşdirilməsi, rənglərin uyğunluğu və tonlaşdırılması. Siluet xətlərinin qurulması.

***Mövzu 1.5.* Geyimin konstruksiya edilməsinin əsas amilləri - 4 saat**

Modelin konstruksiya edilmə prosesi. Mürəkkəb yaradıcı, müasir bədii və texniki tələblərin həlli. Geyimlərin kütləvi istehsalında konstruksiyanın layihələndirilməsi. Geyimə məxsus tələblər.

***Mövzu 1.6.*** **İnsan fiqurası haqqında məlumat - 4 saat**

Müxtəlif formaları formalaşdırmaq. Bədənin ayrı-ayrı hissələrinin öyrənilməsinin əhəmiyyəti. Plastik anatomiyada bədənin bəzi sahələri. Geyimin örtülməsi zamanı insan fiqurasının əhəmiyyəti.

***Mövzu 1.7.*** **Antropometrik ölçü göstəricilərinin adı, şərti ışarəsi və ölçü götürülmə qaydaları - 4 saat**

Fərdi tikiş istehsalında geyimin konstruksiyası. İnsan bədənindən alınmış ölçü göstəriciləri əsasında qurulması. Ölçünün dəqiq götürülməsi üçün şərti qəbul edilmiş əsas antropometrik nöqtələri. Antropometriya.

***Mövzu 1.8.*** **Əsas ölçülərin xarakteristikası - 4 saat**

Konstrukisiyada ölçülərin xarakteristikası. Geyimin konstruksiyasının qurulmasında əsas ölçülər. Əhatə ölçüləri. Uzununa ölçülər. Eninə ölçülər. Proyeksiya ölçüləri. Köməkçi ölçülər.

***Mövzu 1.9.*** **Ölçü standartlarının hazırlanması - 4 saat**

Yardım Şuralarının tövsiyəsi ilə vahid standartların hazırlanması. İqtisadi Yardım Şuralarının apardığı tədqiqatlar. Tikiş məmulatları üzrə Respublika Standartlarının hazırlanması. Standartlarla məmulatların bütün fiqurlar üzrə ölçülərinin göstərilməsi.

***Mövzu 1.10.*** **Geyimin Vahid Konstruksiya Metodikasının (GVKM) əsas xarakterik xüsusiyyətləri - 4 saat**

GKVM əsas üstünlüyü və xüsusiyyəti. GKVM-in geyimlər üçün universal olması. Konstruksiya kəsikləri və onların bütün geyimlərdə təkrarlanması. Geyimlərin iki hissəyə bölünməsi.

***Mövzu 1.11.*** **Ornament və ritm - 4 saat**

Ornament. Ritm. Ritmin kompozisiya qanununa uyğunlaşdırılması. Duyulan və ölçülmüş elementlərin təsviri qanunu.

***Mövzu 1.12.*** **Geyimin konstruksiyasını layihə etmək üçün nümunəvi qadın fiqurunun əsas ölçü göstəriciləri - 4 saat**

Geyimləri konstruksiya etmək üçün nümunəvi fiqurlar. İYŞ tərəfindən aparılan hesablamalar. Cədvəllər.

***Mövzu 1.13.*** **Qadın fiqurunun müxtəlifliyindən asılı olaraq don modelinin seçilməsi üçün bəzi tövsiyələr - 4 saat**

Donun müxtəlif biçim formaları. Fiqur xüsusiyyətinin nəzərə alınması. Münasib xətlər. Modelin seçilməsi.

***Mövzu 1.4.*** **Geyim hissə və hissəcikləri,onların konstruktiv xətləri - 4 saat**

Modeldən asılı olaraq (forma, ölçü və miqdarına görə) geyim hissələrinin təyini. Geyimin modelinin seçilməsi. Konstruksiyasının qurulması. Təyinatı. Parçanın strukturu. Tərkibi. Naxışlar. Geyimin siluetinin (forma) nəzərə alınması.

***Bölmə 2. Qadın geyimlərinin konstruksiyasının layihələndirilməsi***

***Mövzu 2.1.*** **Qadın geyimlərinin konstruksiyasının METTSİ görə ilkin hesablanması - 6 saat**

Müxtəlif çeşidli qadın geyimləri. Kütləvi qaydada geyimin ülgü çertyoju. Fərdi qaydada geyimin ülgü çertyoju. Geyimin bədənə yatma dərəcəsi. Modaya və siluetə uyğun müəyyən edilməsi. Geyimlərin formalardan layihələndirilməsi.

Konstruksiyanın layihə edilməsi. "Kütləvi tikiş istehsalı üçün yeni ölçü tipologiyasının metodikası" və "Mütənasiblik qanunu" əsasında işlənməsi. Metodika üzrə ülgü çertyojunun qurulması. Nümunəvi qadın ölçü göstəriciləri.

***Mövzu 2.2.*** **Geyimlər üçün nəzərdə tutulan əlavə pay və əlavə artımlar - 6 saat**

Paylar. Əlavə paylar. Payların miqdarı. Materialın paket qalınlığı. Geyimləri tərtib edən zaman verilən ölçüdən əlavə payların verilməsi. Konstruksiya olunan geyimlərə verilən əlavə payın hesablanması.

***Mövzu 2.3.*** **Geyim hissələrini konstruksiya etdikdə çertyojun ilkin qurulma metodu və əsas konstruksiya xətləri - 6 saat**

İstehsalatda geyimin yeni modelinin hazırlanması. Müxtəlif üsullardan istifadə olunması. Əsas konstruksiya (ƏK). Baza konstruksiyası (BK). Model konstruksiyası (MK).

***Mövzu 2.4.*** **Çiyinli geyimlər - 6 saat**

Çiyin xətti. Kürək xətti. Ölçülərinə əsasən təyin olunması. Müxtəlif formalarda qurulması. Yaş qruplarına görə hazırlanması. Mövsümə əsasən hazırlanması. Çiyin xəttinin hesablanması.

***Mövzu 2.5.* Kəmərli geyimlər - 6 saat**

Bel dairəsinin ölçülməsi. Kəmərli geyimlərin müxtəlif formaları. Bədən quruluşuna əsasən hazırlanması. Mövsümünə görə tərtib olunması.

***Mövzu 2.6.* Düz yubkanın BK qurulması - 6 saat**

Bel dairəsi. Geyimin uzunluğunun hesablanmaqla təyin olunması. Məmulatın çertyojunun qurulması. Tikiş, qatlanma və ehtiyat payları.Ülgünün çıxarılması. Kəsiklər boyu lazımi ölçülərin aparılması.

***Mövzu 2.7.* Düz yubkanın modelləşdirilməsi - 6 saat**

Düz yubkaların modelləşdirilməsi. Çertyojun qurulması. Formalarda aparılan dəyişikliklər. Mövsümünə və yaşa görə tərtibi. Ülgülərin çıxarılması.

***Mövzu 2.8.* Konus şəkilli, taxtalı yubkaların konstruksiyası və modelləşdirilməsi. Yumşaq qasmalı düz yubka – 6 saat**

Bel xəttinin və aşağı xəttinın yuxarıya qaldırılması. Yubkanın müxtəlif formaları. Yubkaların modelləşdirilməsi. Çertyojun əsası. Ülgülərin çıxarılması.

***Mövzu 2.9.* Bir tərəfə yatan yumşaq qasmalı düz yubka - 6 saat**

Düz yubkanın əsas çertyoj üzərində qurulması. Yubkanın yuxarı hissəsinin kəmərlə hazırlanması. Yubkanın zəncirbəndlənməsi.

***Mövzu 2.10.* Günəş yubkanın hesabatı - 6 saat**

Ön və arxa hissədə bel xəttinin və aşağı xəttin yuxarıya qaldırılması nəticəsində Günəş yubkanın təyini. Bel xəttinin şaquli xətlə kəsişmə nöqtəsi ilə birləşdirilməsi. Konstruksiyanın qurulması.

***Mövzu 2.11.* Yarımgünəş yubkanın hesabatı - 6 saat**

Yubkanın bədənə düzgün oturması. Sapın çəpinə istiqamətdə yerləşdirilməsi. Konstruksiyanın quruluması. Modeləşdirilməsi.

***Mövzu 2.12.* Qadın şalvarının BK qurulması - 6 saat**

Konstruksiya çertyoju, tikiş və qatlanma payı. Ehtiyat payının nəzərə alınması. Müəyyənləşdirilmiş qaydada kəsiklərə tikiş və qatlanma paylarının ülgüylə təyin olunması.

***Mövzu 2.13.*** **Gen-bol biçimli şalvar - 6 saat**

Şalvarın aşağı xətləri - üfüqi xətlər. Qarsaq xətti boyunca bel xəttindən aşağı xəttə qədər kəsiklər. Yuxarı hissənin bir-birindən aralayıb təyin olunması.

***Mövzu 2.14.*** **Ciblərin hesabatı və qurulması - 6 saat**

- Ciblərin işlənməsinin geyimlərə görə təyin olunması. Müxtəlif formalarda ciblər: kəsik ciblər
- tikişdə yerləşən ciblər
- üst ciblər
- qoltuq ciblər və s.

Hesabat aparılan zaman hansı məmulat üçün aparılması və təyin olunması.

***Mövzu 2.15.*** **Yan ciblərin qurulması - 6 saat**

Yan cibin yerinin dəbə uyğun müəyyənləşdirilməsi. Cib yerinin bel xətti üzərində və yaxud bel xəttindən aşağıda yerləşməsi.

***Bölmə 3. Geyimlərin Vahid Konstruksiya Metodikasının Əsas xüsusiyyətləri.***

***Mövzu 3.1.*** **Qol əsasının qurulması - 4 saat**

Qol əsasının qurulması: qolun eninin, qapalı qol yerinin hündürlüyünün, qolun çiyin dairəvi uzunluğunun və eninin  təyini.

***Mövzu 3.2.*** **Bir-tikişli qollar - 4 saat**

Tikiş qolun eninin mərkəzində və ya ondan sağ tərəfdə yerləşə bilər. Tikiş xəttinin qol dibinin eninin yarısında, aşağıda isə qolun eninin yarısında təyini.

***Mövzu 3.3.*** **İki-tikişli qol - 4 saat**

İki-tikişli qollardan üst geyimlərində istifadə olunması. Hər iki qolun, qol əsası üzərində açılış etməklə yerinə yetirilməsi.

***Mövzu 3.4.*** **Reqlan biçimli qolun qurulması - 4 saat**

Kürək cizgisində reqlanın birləşmə xəttinin qurulması. Kürək çıxıntılarına boşluğun verilməsi. Çiyin xəttində olan qarsağın boyun əyriliyinə keçirməklə təyin olunması.

***Mövzu 3.5.*** **Qolların modelləşdirilməsi - 4 saat**

Qol çertyojlarının olduğu kimi saxlanılaraq əsas ülgü üzərində müəyyən dəyişikliklər edilməsi. Qolların modelləşdirilməsi. Qurulması.

***Mövzu 3.6.*** **Qol yerində və qolun çiyin dairəsində çərtiklərin yerləşdirilməsi - 4 saat**

Çərtiyin yeri. Çərtiyin yerinin  yığmanın miqdarından asılılığı. Çərtiyin qol yeri ilə qol dairəsinin uzunluğu arasındakı fərqlə müəyyənləşditilməsi.

***Mövzu 3.7.*** **Qadınlar üçün düz siluetli bluzkanın konstruksiyası - 4 saat**

Bluzkaların qabaq və arxa hissələrinin ülgü çertyoju. Don lifinin əsas ülgü çertyoju. Döş xiştəyinin qoltuq altına köçürməklə təyini.

***Mövzu 3.8.*** **Qadınlar üçün qasmalı bluzkanın konstruksiyası - 4 saat**

Yuxarı döş xiştəyinin sonuncu qasma qatının altına salınması. Qabaq hissənin arxasında süyməməmə yerinə 2-2.5 sm əlavə pay verilməklə təyin olunması.

***Mövzu 3.9.*** **Boyun kəsiklərinin formasında köbənin konstruksiyası - 4 saat**

Boyun kəsiklərinə köbənin qoyulması.Boyun dairəsinin təyin edilməsi. Konstruk-siyanın qurulması. Kəsiklərin təyini.

***Mövzu 3.10.*** **Qadınlar üçün qolu bütöv biçilmiş bluzkanın konstruksiyası - 4 saat**

Konstruksiyanın qolla birlikdə biçilməsi. Geyimi layihələndirilən zaman çertyoj üzərində müxtəlif dəyişikliklərin aparılması.

***Mövzu 3.11.*** **Qadınlar üçün koketkalı bluzkanın konstruksiyası - 4 saat**

Yuxarı döş xiştəyini koketka ilə əvəz olunması. Arxa hissənin ülgü çertyoju. Don lifinin arxa hissəsinin əsas ülgü çertyoju əsasında qurulması.

***Mövzu 3.12.*** **Reqlan biçimli məmulatın arxa və qabaq hissəsinin kons-truksiyası - 4 saat**

Qoltuqaltı səviyyəsində qabaq hissədə qolun eninin təyini. Qol dairəsinin təyin edilməsi. Konstruksiyanın qurulması. Ön və arxa hissənin çertyojunun qurulması.

***Mövzu 3.13.*** **Qadın donunda qarsaqların hesablanması - 4 saat**

Qadın donlarında qarsaqların hesablanması.Qolun üst kəsiyinin tərtibi.Qarsaqların hesablanması qaydası:sağa, düz xətlə birləşdirilir və  tərtib edilir.

***Mövzu 3.14.*** **Geyimin köynək biçimli qolla konstruksiya edilməsi - 4 saat**

Qolu köynək biçimli geyimlər. Geniş formalı və sərbəst siluetli geyimlərin tərtibi. Konstruksiyanın qurulması və biçimə hazırlanması.

***Mövzu 3.15.*** **Mütənasıblik üsulunun qurulması - 4 saat**

İnsan bədəninin statik vəziyyətində (şaquli halda, sərbəst) çiyin məmulatının boyun sahəsinə, çiyin, kürək və qabaq hissənin yuxarı hissəsinə bərabər olmasına görə tərtibi. Mütənasibliyin təyini.

***Mövzu 3.16.*** **Qadınlar üçün çertyojun hesabatı və sərbəst siluetli donun çertyojunun qurulması - 4 saat**

Qadın donlarında formanın seçilməsi. Çertyoju qurarkən hesabat. Ölçülərin təyini. Hesabatı. Siluetin formaları. Çertyojun qurulması.

***Mövzu 3.17.*** **Qadınlar üçün şarfla düymələnən donun konstruksiyası - 4 saat**

Qabaq və arxa hissələrin təyini. Bir-tikişli qolun ülgü çertyoju. Üllgü çertyoju əsasında qurulurması. Donun yaxalıqsız hazırlanması. Boyun yerinin kəsiyi. Ülgü çertyojunun tələbinə uyğun qurulması.

***Mövzu 3.18.*** **Qadınlar üçün düz siluetli beli kəsik olmayan paltar - xalatın konstruksiyası – 4 saat**

Paltar - xalatın döş qarsağının yan xəttə keçirilməsi. Bağlanma üçün və bütöv biçilmiş bortaltı üçün payın təyini. Kəsiyi olmayan paltarın təyini.

***Mövzu 3.19.*** **Çanaq xəttindən kəsik siluetli paltonun modelləşdirilməsi - 4 saat**

Paltonun modelləşdirilməsi. Çanaq xəttindən yapışıq və yarımyapışıq siluetlərdə qarsağın təyini. Kəsik siluetlərin təyini. Arxa qarsağın tərtibi. Yan qarsaq, iki ön qarsağın tərtıbi.

***Mövzu 3.20.*** **Qadınlar üçün qolu bütov biçilmə paltonun texniki modelləşdirilməsi - 4 saat**

Yapışıq və yarımyapışıq siluetlərdə olan geyimin bədəndə yaxşı oturması. Kürəyin orta xəttinın qurulması. Modelləşdirilməsi. Texniki payların hesabatı.

***Mövzu 3.21.*** **Birbortlu donun konstruksiyası - 4 saat**

Birbortlu uzun qolun təyini. Donun düzbucaqlı formasında böyük üst cibləri və boyundan aralı duran yaxalığının qurulması. Konstruksiyanın hazırlanması.

***Mövzu 3.22.*** **Qadınlar üçün koketkalı donun konstruksiyası - 4 saat**

Bel xəttinin tərtibi. Modelə uyğun xətlərin kürək və ön hissənin ülgüsü üzərinə görülülməsi. Koketkaların konstruksiyası. Donun qurulması.

***Mövzu 3.23.*** **Qadınlar üçün uzunqollu kəmərcikli donun konstruksiyası - 4 saat**

Qolun və arxa hissənin çertyojunun əsas ülgü çertyoju əsasında qurulması. Döşxiştəyinin çiyin kəsiyində qol yeri tərəfə çəkilməsi. Döş və bel xiştəyinin omba xəttinə qədər qurulması.

***Mövzu 3.24.*** **Relyef xətlərin qurulması - 4 saat**

Relyef xətlərinin hesabatı. Geyimin tərtib olunması. Xətlərin yerləşdirilməsi. Qurulması.

***Mövzu 3.25.*** **Yeddi taxtalı qadın paltarının konstruksiyası - 4 saat**

Bel xətti bir qədər uzadılmış paltarın konsturkisyası. Şal yaxalığın qabaq hissə ilə bütöv biçilməsi.Hesabatın aparılması,qurulması və tərtibi.

***Mövzu 3.26.*** **Yun parçadan paltar modelinin işlənməsi - 4 saat**

Qabaq hissədə belin yan kəsiyinin qurulması. Donun yun, şapel və sıx toxunmuş süni ipək parçalardan tərtibi. Modelləşdirilməsi və qurulması.

***Mövzu 3.27.*** **Qadınlar üçün reqlan biçimli paltarın konstruksiyası və modelləşdirilməsi - 4 saat**

Qolu reqlan biçimli paltarların qol yeri xəttinin və qolun üst hissəsinin konfiqurasiya ilə təyini. Reqlan biçimli paltarın konstruksiyası və modelləşdirilməsi.

***Mövzu 3.28.*** **Qadınlar üçün müxtəlif formalı yüngül geyimlərin ülgü çertyoju - 4 saat**

Qadınlar üçün yüngül geyimlərin təyini. Formasına və biçiminə görə tərtibi. Geniş həcmli reqlan, kimano biçimli, fonar qollu, çiyni qaldırılmış yüngül donların tərtib edilməsi.

***Mövzu 3.29.*** **Qadınlar üçün kimano-xalat - 4 saat**

Uzun qollu, çəpinə yönəlmiş üst cibləri və şalabənzər yaxalığın qurulması. Ülgü çertyojunun qurulması. Mütənasıblik üsulu ilə tərtibi.

***Mövzu 3.30.*** **Döş qarsağinin hərəkət qaydası - 4 saat**

Döş qarsağının qurulması. Radiusun döş hündürlüyünə bərabər xətt üzərində qurulması. Konstruksiyası və modelləşdirilməsi.

***Bölmə 4. Geyim detallarının layihələndirilməsi***

***Mövzu 4.1.*** **Dama-dama parçadan donun konstruksiyası - 6 saat**

Detalların modadan asılı olaraq tərtibi. Məmulatın çertyojunun hissələrinin detallarının çıxarılması və layihələndirilməsi. Layihənin qurulması.

Bel xətti kəsilmış ətək hissəsinin enli götürülməsi. Lifi sərbəst formalı donun tərtibi. Konstruksiyanın qurulması.

***Mövzu 4.2.*** **Xal-xal parçadan paltarın konstruksiyası - 6 saat**

Bel kəsiyi olmayan, yapışıq, aşağısı azca ennliləşdirilmış donun təyini. Köbənin qurulması. Konstruksiyanın hazırlanması. Parçanın duzgün sərilməsi.

***Mövzu 4.3.*** **Qadın paltosunun qurulması - 6 saat**

Müxtəlif siluetlərdə geyimin bədənə uyğun təyini. Kürəyin orta xəttinin qurulması. Konstruksiyanın qurulması və hesabatı.

***Mövzu 4.4.*** **Yan ciblərin qurulması - 6 saat**

Ətəkdə yan cibin modadan asılı olaraq müəyyənləşdirilməsi. Konstruksiyanın kəsik köbəli cib olursa maili, şaquli, fiqurlu və s. tərtib olunması. Hesabatın və çertyojun qurulması.

***Mövzu 4.5.*** **Yaxalıqların növləri və formaları - 6 saat**

Yaxalıq geyimin bəzək hissələrinə daxildir. Forma və xətlərin geyimin təyinatına və başqa hissələrinə mütənasib olması.Modanın müasirliyini saxlamaqla tərtib edilməsi.

**Mövzu 4.6. Bağlaması boyun kəsiyinə qədər olan yaxalıqlar - 6 saat**

Alt yaxalıq. Əksər hallarda oval tikişli, bəzən də qabaq hissə ilə bütöv biçilməsi. Yaxalığın boyun yerinə oval xəttə düz və oturacağına enli olması.Yaxalığın boyuna kip yatımlı olması.

**Mövzu 4.7. Yastı yayılmış yaxalıqlar - 6 saat**

Boyun yerindən çox aralı dayanmasını təmin etməkdən ötrü yaxalığın orta xəttinin arxa hissənin orta xəttindən kürəyə tərəf tərtib edilməsi. Yaxalıqların qurulması.

**Mövzu 4.8. Manjetlərin növləri və formaları - 6 saat**

Manjetlərin qurulması və növləri. Tərtibi. Modelləşdirilməsi. Layihələndirilməsi. Müxtəlif formaların tərtibi.

***Bölmə 5. Kişi üst geyimlərinin konstruksiyası.***

***Mövzu 5.1.* Kişi üst geyimlərinin konstruksiya xüsusiyyətləri - 6 saat**

Modadan və fəsildən asılı olaraq, kişi geyimlərinin müxtəlif növlərə bölünməsi. Kişi geyimlərinin təyinatı. Layihələndirilməsi. Modelləşdirilməsi.

Kişi geyiminin siluetinin təsiredici əsas xüsusiyyəti. Estetik zövq yaradan kompozisiya. Geyimlərdə xətt yönəlişinin böyük əhəmiyyəti. Kişi geyimlərinin xarakteri. Geyimlərin çiyin, döş, bel, omba, yaxalıq, yaxa, bort, qollar və s. xətlərdən tərtib olunması.

***Mövzu 5.2.* Nümunəvi kişi fiqurunun ölçüsünə, boyuna, doluluq və yaş qrupuna görə təsnifatı - 6 saat**

Kişi geyimlərinin konstruksiyasının hazırlanması. Geyimlərin yeni tipoloji ölçü göstəricilərinə uyğun hazırlanmış metodika əsasında qurulması.

***Mövzu 5.3.* Kişi çiyin məmulatının konstruksiyasının ilkin hesablanması - 6 saat**

Konstruksiya çertyojunun qurulmasında əlavə paya müvafiq və qol yerinin, kürəyin, sinənin eninin müəyyənləşdirilməsi. Çiyin geyimlərinin konstruksiya çertyoju.Tikiş, qatlanma qolun ağzı, ətək və ehtiyat payı.

***Mövzu 5.4.* Bədənə yatan və yarımyatan siluetli,yancağı kəsik çiyin geyiminin əsas çertyoju - 6 saat**

Ülgü çertyojunun qurulması.Kağız üzərində soldan sağa şaquli düz xəttin çəkilməsi.Xıştək ağzındakı yığmanın miqdarı.Üfüqi xətt boyu arxa hissənin yuxarı sahəsinin qurulması.

***Mövzu 5.5.* Jiletin konstruksiya çertyojunun qurulması - 6 saat**

Kişi kostyumunun tərkib hissəsi. Birbortlu və ikibortlu jiletin hazırlanması. Birbortlu jilet,birbortlu və ikibortlu pencək; ikibortlu jiletin birbortlu pencəyə görə tərtib olunması.

***Bölmə 6. Uşaqlar üçün geyimin layihələndirilməsi***

***Mövzu 6.1*. Körpələr və uşaqlar üçün geyimlərin konstruksiyasının əsas xüsusiyyətləri - 6 saat**

Uşaq geyimlərinin layihələndirilməsi. Gigiyenik dekorativlik. Yaşa görə tərtibi. Konstruksiyası. Modelləşdirilməsi. Geyimin qurulması.

Körpələr və uşaqlar üçün geyimlərin modelləşdirilməsi və konstruksiya edilməsi. Hesabatı. Layihələndirilməsi. Körpənin ilk geyiminin təyinatı. Müxtəlif formalarda tərtibi.

***Mövzu 6.3.* Məktəbli və yeniyetmə uşaqlar üçün geyimlər - 6 saat**

Məktəbli və yeniyetmə uşaqlar üçün geyimlərin modelləşdirilməsi,konstruksiyası. Hesabatı. Layihələndirilməsi. Məktəbəqədər yaşlı uşaqların yüngül geyim formaları.Yeniyetmə uşaqların geyimlərinin tərtibi.

***Mövzu 6.4.* Qız üçün don - 6 saat**

Qız üçün donların modelləşdirilməsi, konstruksiyası. Hesabatı. Layihələndirilməsi. Yaşından asılı olaraq donların estetik zövqün inkişafı və formalaşmasında əhəmiyyəti.

***Mövzu 6.5.* Qız üçün beli kəsik donun layihələndirilməsi - 6 saat**

Qız üçün donların layihələndirilməsi.Fiqur ölçüsü, ülgülər üzərində göstərilən göstərişlər. Bel hissənin hesablanması.Kəsik donların tərtibi.

***Mövzu 6.6.* Müxtəlif yaş qrupunda uşaqlar üçün kəmərli geyimlərin konstruksiyası - 6 saat**

Uşaqlar üçün kəmərli geyimlərin konstruksiyası. Bel hissəsinin ölçülməsi və tərtibi. Müxtəlif yaş qruplarında uşaqlar üçün kəmərli geyimlərin konstruksiyası və layihələndirilməsi.

***Bölmə 7. Geyimin fərdi layihələndirilməsi üsulları***

***Mövzu 7.1.* Geyimin layihələndirmə üsulları - 6 saat**

Müasir layihələndirmə prosesinin xüsusiyyəti.Predmetin ictimai dəyəri və morfoloji tərəfdən baxılması.

Layihələndirmənin fəaliyyətində istifadə olunan predmetlərin ardıcıl istifadəsi. Layihələndirmənin növləri.Layihələndirmənin üsulları.

***Mövzu 7.2.* Maketin bədənə uyğunlaşdırılması - 6 saat**

Maketin çiyin və yan xətlərinin köklənməsi. Maketə geyindirilib orta hissənin köklənməsi və sancaqlanması.

***Mövzu 7.3.*** **Geyimin modelinin konstruksiya edilməsinin texniki üsulları-6saat**

Modellərin konstruksiya edilməsində, hazırlanmasında hazır geyim modelindən istifadə edilməsi.Texniki üsulların tərtibi.

***Mövzu 7.4.*** **Hazır modelin görünüşünə uyğun yeni geyim modelinin konstruksiyasının işlənilmə üsulları - 6 saat**

Modelin xətlərinin və ölçü göstəricilərinin baza çərçivəsində qurulması.Hazır modeldən ülgünün çıxarılması.

***Mövzu 7.5.*** **Əsas ülgünün fərdi maketə uyğunlaşdırılaraq dəqiqləşdirilməsi qaydası - 6 saat**

Əsas ülgünün çıxarılması. Uyğunlaşdırmadan sonra maketin stolun üzərinə qoyulması.Köçürmə xətlərinin nişanlanması.

***Mövzu 7.6.*** **Geyimin bədənə fərdi uyğunlaşdırılması - 6 saat**

Maketin bədənə uyğunlaşdırılması. Maketin bədənə birinci uyğunlaşdırması. Maketin bədənə ikinci uyğunlaşdırılması. Köklэmə işinin aparılması.Bütün hissələrin maşınla tikilməsi.

***Mövzu 7.7.*** **Geyimdəki qüsurlar, onların alınma səbəbləri və düzəldilmə üsulları - 6 saat**

Qüsurun əmələ gəlməsinə səbəb ölçü göstəricilərinin bədəndən səhv götürülməsi. Düzgün götürülməyən ölçülərin ülgü çertyoju əsasında düzəldilməsi.Biçilən geyimin qüsurlarının aradan qaldırılması.

***Mövzu 7.8.*** **Bədənin formasından asılı olaraq şalvarın çertyojunda aparılan dəyişikliklər - 6 saat**

Şalvarın çertyojunun nümunəvi ölçü göstəricisi əsasında qurulması.Omba və sağrının nümunəvi ölçü üçün tərtib edilməsi.

***Mövzu 7.9.*** **Kütləvi tikiş məmulatı istehsalında ülgünün hazırlanma qaydaları - 6 saat**

Geyim konstruksiyasının çertyoju əsasında əsas ülgünün çıxarılması. Əsas ülgünün hazırlanması.Kütləvi istehsal üçün hazırlanma.

***Mövzu 7.10.*** **Ülgü tərtibatının texniki tələbləri - 6 saat**

Ülgü nümunələrinin hazırlanması. Nümunəvi ülgünün çıxarılması. Nümunəvi ülgünün yoxlanılması.Nümunəvi ülgünün dəqiqləşdirilməsi. Nümunəvi ülgünün əsas və köməkçi ülgülər tərəfindən hazırlanması.

***Mövzu 7.11.*** **Qadın üst geyimlərində eyni tipli konstruksiyanın xarakteristikası - 6 saat**

Qadın geyimlərinin quruluşu. Ülgülərinin çıxarılması. Mövsümə görə layihə-ləndirilməsi. Xarakteristikasının təhlili.

***Mövzu 7.12.*** **Korset məmulatının qısa inkişaf tarixi haqqında məlumat - 6 saat**

Korsetlərin yaranma tarixi. Korsetin inkişafı. Korsetin qurulması. Korsetin köməkliyilə qadın bədəninin mütənasibliyini təmin etmək.

## ƏDƏBİYYAT


1. A.S. Əliyev, B.Z. Zalov Geyimlərin konstruksiya edilməsi, Bakı-2012
2. S.M.Cəfərova, Z.İ.Xəlilova Qadın geyimlərinin konstruksiya edilməsinin əsasları, Bakı-2011
3. Ə.N.Orucov,O.Ş.Şamxalov Geyimlərin modelləşdirilməsi və konstruksiya edilməsinin əsasları
4. A.S.Əliyev Özün biç, özün tik.